Avtomatık ıdentıfıkasıya sahəsində xıdmətlərın görülməsı haqqında

## __________ №-li MÜQAVILƏ

**Bakı şəhəri** **«______» ___________2012-ci il**

**«QS1 Azərbaycan» Cəmiyyəti** (bundan sonra Cəmiyyət adlanan), Nizamnamə əsasında fəaliyyət göstərən Baş Direktor V.L.Əliyev şəxsində, bir tərəfdən, və, digər tərəfdən,

______________________________________________________________________________

(hüquqi və ya fiziki şəxsin adı)

______________________________________________________________________________

(rəhbərin adı, soyadı)

(bundan sonra İstifadəçi adlanan) aşağıdakı şərtlərlə bu müqaviləni bağladılar.

### 1. MÜQAVILƏNİN PREDMETI

Müqavilənin predmetini Beynəlxalq **GS1** Əmtəə Nömrələməsi sistemində unikal identifikasiya nömrələrinin verilməsi və ştrixkodlardan avtomtik identifikasiya sistemində istifadəsi ilə bağlı İstifadəçi ilə Cəmiyyət arasında qarşılıqlı şəkildə razılaşdınlmış şərtlər təşkil edir.

### 2. CƏMİYYƏTİN ÖHDƏLİKLƏRİ

2. Cəmiyyət aşağıdakıları öz öhdəsinə götürür:

2.1. İstifadəçinin Beynəlxalq **GS1** Əmtəə Nömrələməsi sistemində unikal identifikasiya nömrəsi - İstifadəçinin Qlobal Prefiksi (**GCP**) ilə daxil olmasını və müddətli qüvvədə saxlanmasını təmin edir.

2.2. İstifadəçi tərəfindən təqdim edilən **Məhsulların məlumat cədvəlinə** əsasən əmtəə məhsullarının hər növü üçün Beynəlxalq **GS1** əmtəə nömrələməsi sistemində unikal ştrixli kodun rəqəmli əhəmiyyətini cədvəl şəklində verir.

2.2.1. Bir ay ərzində İstifadəçinin tərəfindən sifariş olunan 15 növədək əmtəə məhsullarına ştrixli kod nömrələri pulsuz verilir.

2.2.2. Əgər ay ərzində İstifadəçi tərəfindən 15-dən artıq əmtəə üçün ştrixli kod sifariş olunsa, onda İstifadəçi alınan hər bir 15-dən artıq ştrixli kod nömrəsinə görə razılıq protokolunda (1 №-li əlavə) göstərilən məbləqi Cəmiyyətə ödəyir.

2.3. İstifadəçiyə ayrılan nömrələrin unikal və təkrarolunmazlığına təminat verir.

2.4. İstifadəçiyə ayrılan ştrixli kod nömrələrini başqa istifadəçilərə vermir.

2.5. İstifadəçının əmtəə məhsullarına alınan ştrixli kodları «QS1 Azərbaycan» Depozitarisinin (kompüter məlumat bazasına) tərkibinə daxil edir.

2.6. İstifadəçiyə Beynəlxalq qlobal **GS1** sistemində Məlumatların Elektron Mübadiləsində istifadə üçün Qlobal Yerləşdirmə Nömrəsi (**GLN**) verilir.

2.7. İstifadəçiyə Beynəlxalq **GS1** Əmtəə Nömrələməsi sistemində unikal identifikasiya nömrəsi - İstifadəçinin Qlobal Prefiksi (**GCP**) və Qlobal Yerləşdirmə Nömrəsi (**GLN**) nömrələrilə qeydiyyata alınmasını təsdiq edən sənədləri - **Şəhadətnamə** və növbəti illər üçün **Vəsiqə** verir.

2.8. İstifadəçi haqqında İnternetdə **GS1** sisteminin **«GEPIR»** beynəlxalq Elektron kataloqunda məlumatı yerləşdirir.

2.9. Ştrixli kodlaşdırmanın istehsalatda tətbiq və istifadə edilməsində metodiki və konsultativ yardım göstərir, informasiya daşıyan çap nəşrləri (qazet, təqvim, bülletenlər, vərəqələr və s.) təqdim edir.

2.10. İstifadəçinin hər növ əmtəələrin uzərində ştrixkodun düzgün vurulmasında, o cümlədən, ölçülərinin, rəng palitrasının və yerinin seçilməsində konsultativ xarakterli köməklik edir.

2.11. Cəmiyyət öz hesabına alınan materiallarla İstifadəçinin sifarişi ilə Razılıq protokolunda (1 №-li əlavə) göstərilən məbləğin ödənilməsi şərti ilə əmtəə məhsullarının hər növü üçün ştrixkod simvolunun maketinin (film-master) plyonkada və disk/disketdə tələb olunan ölçülərdə hazırlanması xidmətlərini göstərə bilər.

2.12. İstifadəçi tərəfindən tam doldurulmuş və imzalanmış **Məhsulların məlumat cədvəli** Cəmiyyətə təqdim ediləndən 3 (üç) iş günü ərzində emal olunur və İstifadəçiyə müfafiq formada Çıxarış Cəmiyyətin ofisində verilir və ya faks yaxud internet vasitəsilə İstifadəçinin ünvanına göndərilir.

2.13. Təcili sifariş olduğu halda (müraciət günü ərzində) Razılıq protokolunda (1 №-li əlavə) göstərilən məbləq ödənilir.

### 3. İSTİFADƏÇİNİN ÖHDƏLİKLƏRİ

**3.** İstifadəçi aşağıdakıları öz öhdəsinə götürür:

3.1. Cəmiyyət tərəfindən müəyyən olunmuş sənədlərin toplusunu və doldurulmuş Ərizə formasını təqdim edir.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

3.2. Ştrixli kod nömrəsini almaq üçün Cəmiyyətə hər növ əmtəə haqqında müəyyən edilmiş formada məlumat verir.
3.3. Verilən ştrixli kod nömrələrini başqa müəssisələrə və ya şəxslərə vermir.
3.4. Cəmiyyət tərəfindən müəyyən edilmiş əmtəələrin unikal ştrixli kodları başqa əmtəələrdə istifadə etmir.
3.5. Əmtəələrə ştrixli kod nömrəsini özü verə bilməz.
3.6. Görülən xidmətlərə görə Cəmiyyətə razılaşmış həcmdə məbləqi vaxtında ödəyir.
3.7. Öz məhsullarının üzərindəki çap olunan əmtəə ştrixkodların oxunma qabiliyyətinə görə məsuliyyət daşıyır.
3.8. Verilən ştrixkod nömrələrinin istifadə hüququnun itirilməsi (müqavilənin 5.3 bəndinə əsasən) İstifadəçini xidmət haqqının ödənilməsindən azad etmir.

## 4. MÜQAVİLƏNİN HESABLAŞMA QAYDALARI

4.1. Ştrixli kodlaşdırma sahəsində Cəmiyyət tərəfindən göstərilən xidmətlərin dəyəri razılaşdırılmış qiymət haqqında Razılıq protokolu əsasında müəyyən edilir (1 №-li əlavə) və ikitərəfli imzalanmış təhvil-təslim aktı ilə xidmətlərin göstərilməsi təsdiqlənir.
4.2. Ödənişlər İstifadəçiyə Cəmiyyət tərəfindən təqdim olunan hesaba əsasən keçirilir.
4.3. İstifadəçiyə Cəmiyyət tərəfindən təqdim olunan tarixindən Şəhadətnamənin müddəti sonrakı illərdə İstifadəçiyə verilən illik Vəsiqələrlə uzadılır.

## 5. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

5.1. Tərəflər öz öhdəliklərinin yerinə yetirilməməsi və ya lazımınca yerinə yetirilməməsi səbəbdən digər Tərəfə faktiki dəymiş zərəri qanunvericilikdə nəzərdə tutulmuş qaydada ödəyirlər.
5.2. İstifadəçi illik xidmət haqqını vaxtında ödəyə bilmədikdə Cəmiyyətə 10 gün ərzində yazılı şəkildə məktubla məlumat verir. Məktubda xidmət haqqının vaxtında ödənilə bilməməsinin səbəbi və ödənişin zəmanəti öz əksini tapmalıdır.
5.3. İlik xidmət haqqının ödənilməməsi müddəti 3 (üç) aydan artıq keçmiş halda İştifadəçi verilən ştrixli kod nömrələrindən istifadə etməsi və öz mallarının etiketlərin üzərinə vurulması hüququnu itirir.
5.4. Müqavilə pozulan andan İstifadəçi istehsal etdiyi məhsulların üzərində Cəmiyyət tərəfindən verilmiş ştrixkod nömrələrindən istifadəni dayandırılmalıdır. Əks halda müvafiq qanunvericiliyə əsasən istehsalçı məsuliyyət daşıyır.

## 6. MÜQAVİLƏNİN MÜDDƏTİ

6.1. Bu müqavilə imzalandığı gündən güvvəyə minir və onun müddəti hər bir ildən sonra illik xidmət haqqının ödənilmə şərti ilə 1 (Bir) il müddətinə uzadılmış hesab edilir.

## 7. MÜQAVİLƏNİN POZULMASI

7.1. Tərəflərin hər biri digər Tərəfi ən azı 30 (otuz) iş günü öncə xəbardar etməklə bu müqavilədən imtina edə bilər.
7.2. Müqavilə birtərəfli qaydada pozulduğu halda bundan öncə odənilən xidmət haqqları geri qaytarılmır.

## 8. MÜBAHİSƏLƏRİN HƏLLİ

8.1. Bu müqavilənin icrası ilə əlaqədar yaranan mübahisələr Tərəflərin danışıqları yolu ilə həll edilir. Mübahisə bu barədə aparılmış olan birinci danışıqlardan etibarən 1 (bir) təqvim ayı ərzində həll edilmədiyi halda Tərəflər həmin mübahisəni qanunvericiliklə müəyyən edilmiş qaydada həll etməkdə haqlıdırlar.

## 9. YEKUN MÜDDƏALAR

9.1. İllik xidmət haqqının ödənilməsi İştifadəçının istehsalat fəaliyyətinin olub olmamasından asılı deyil.
9.2.İstifadəçiyə verilən əmtəə ştrixkodları Cəmiyyətin intellektual mülkiyyətidir. Onlar İstifadəçiyə 1 (Bir) il müddətinə verilir və ayrı şəxslərə verilə bilməz.
9.3. Verilən ştrixkodların istifadə müddəti Cəmiyyət tərəfindən istifadəçiyə təqdim olan hesabın ödənişindən sonra uzadılır.

## 10.TƏRƏFLƏRİN ÜNVANLARI

| | |
|---|---|
| **«QS1 Azərbaycan» Cəmiyyəti** | **«İstifadəçi»** ________________________ |
| Bakı ş. Üz.Hacıbəyov küç, 41 of.62-63 | Ünvan____________________________ |
| VÖEN 1400106351 | VÖEN____________________________ |
| **Baş direktor V.L.Əliyev** | ______________________________ |
| ______________________________ | ______________________________ |

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*« _____ » _____________ 2012 il ______ №-li müqaviləyə 1 №-li Əlavə*

Avtomatik identifikasiya sahəsində xidmətlərin görülməsi üzrə
razılaşdırılmış qiymət haqqında

**RAZILIQ PROTOKOLU**

Biz, aşağıda imza edənlər, bir tərəfdən, **«QS1 Azərbaycan» Cəmiyyətinin Baş direktoru V.L.Əliyev** və digər tərəfdən, **İstifadəçi**_____________________________________________ müqavilədəki ğöstərilən işlərin qiymətlərini aşağıdaki həcmlərdə razılaşdırmışıq.

| №№ | Göstərilən xidmətlərin növü | Ödənişin təyinatı | Qiyməti, manat |
|---|---|---|---|
| 1 | Beynəlxalq **GS1** sistemində İstifadəçinin Qlobal Prefiksi (GCP) və Qlobal Yerləşdirmə Nömrəsi (GLN) - unikal identifikasiya nömrələri ilə qeydiyyata alınması | *daxilolma haqqı* | 350,00 |
| 2 | Beynəlxalq **GS1** sistemində İstifadəçinin Qlobal Prefiksi (GCP) və Qlobal Yerləşdirmə Nömrəsi (GLN) unikal identifikasiya nömrələrinin illik qüvvədə saxlanması, 1 il müddət ərzində əmtəə məhsullarına ştrixkod nömrələrinin (GTİN) ayrılması və qüvvədə saxlanması, «GEPİR» Beynəlxalq elektron kataloqunda məlumatların yerləşdirilməsi, informasiya bülletenlərinin və metodik materialların təqdim edilməsi | *bir illik xidmət haqqı* | 250,00 |
| 3 | Hər əmtəənin ştrixli kod nöməranin rəqəmli əhəmiyyətinin tərtib edilməsi üçün (1 ayda 15-dən artıq olanda) | | 5,00 |
| 4 | Ştrixkodun mətbəədə çapı üçün xüsusi maketin (film-master) hazırlanması – əmtəənin hər bir növü üçün | | 8,50 |
| 5 | Mətbəədə çap olunan ştrixkodların verifikasiyası (standartlara uyğunluğunun yoxlanması) – hər bir ştrixkod üçün | | 10,00 |
| 6 | Əmtəə ştrixli kod nömərələrinin rəqəmli əhəmiyyətinin təcili tərtib edilməsi üçün (müraciət günü ərzində) | | 30,00 |

*Qeyd: Qiymətlərə ƏDV daxil deyil.*

Bu protokol hər iki tərəfin qarşılıqlı hesablaşmaları üçün əsas sayılır.

«QS1 Azərbaycan» Cəmiyyəti
Baş direktoru V.L.Əliyev

___________________________

M.Y.

İstifadəçi

________________________________

________________________________

M.Y.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*«_____» ________ 2012 il ________ №-li müqavilə üzrə*

«Təsdiq edirəm»______________

«QS1 Azərbaycan» Cəmiyyətinin
Baş direktoru V.L.Əliyev

«_____» _____________2012 il
M.Y.

«Razılaşdırılıb»______________

İstifadəçi __________________
___________________________

«_____» _____________2012 il
M.Y.

Bakı şəhəri

«_____» ____________ 2012 ci il

Avtomatik identifikasiya sahəsində xidmətlərin görülməsi haqqında

**TƏHVİL-TƏSLİM**

**A K T I**

*Mövzu: Beynəlxalq GS1 Əmtəə Nömrələməsi sistemində unikal identifikasiya nömrəsinin verilməsi və ştrixkodlaşdırma xidmətləri*

Biz, aşağıda imza edənlər, bir tərəfdən, Cəmiyyətin nümayəndəsi ___________________________və digər tərəfdən, İstifadəçinin nümayəndəsi _______________________________________________ görülən işin müqavilədəki şərtlərə uyğun olmasını və lazımı formada təqdim edilməsini hazırkı aktla təsdiqləyirik.

Göstərilmiş xidmətlərin qısa təsviri:

1. Beynəlxalq **GS1** əmtəə nömrələməsi sisteminə İstifadəçinin Qlobal Prefiksi (**GCP**) **476**_____________ və Məlumatların Elektron Mübadiləsində istifadə üçün Qlobal Yerləşdirmə Nömrəsi (**GLN**) **476**_____________unikal identifikasiya nömrələrilə qeydiyyata alınıb.
2. Beynəlxalq GS1 sistemində unikal identifikasiya nömrəsilə qeydiyyata alınmasını təsdiq edən Şəhadətnamə verilib.
3. İstifadəçi haqqında İnternetdə **GS1** sisteminin **«GEPIR»** beynəlxalq Elektron kataloqunda məlumatı yerləşdirilib.

Göstərilən xidmətlərə görə Cəmiyyətə **413 (Dörd yüz on üç) manat** (ƏDV daxil) ödənilməlidir.

4. Təqdim edilən məlumat cədvəlinə əsasən əmtəə məhsullarının hər növü üçün Beynəlxalq EAN.UCC əmtəə nömrələməsi sistemində ___________ unikal ştrixli kodların rəqəmli əhəmiyyəti verilib.

Müqavilənin 2.2.2 bəndinə əsasən 15-dən artıq əlavə ştrixli kod nömrələrinə görə Cəmiyyətə ______________(_________________________________________________) manat (ƏDV daxil) ödənilməlidir.

5. Müqavilənin 2.11 bəndinə əsasən əmtəə məhsullarının ____________ növü üçün ştrixkod simvolunun maketinin (*film-master*) plyonkada və disket/diskdə tələb olunan ölçülərdə hazırlanmasına görə Cəmiyyətə _________(____________________________________________) manat (ƏDV daxil) ödənilməlidir.
6. Müqavilənin 2.13 bəndinə əsasən ________ ədəd əmtəə ştrixli kod nömərələrinin rəqəmli əhəmiyyətinin təcili (müraciət günü ərzində) tərtib edilməsinə görə Cəmiyyətə ________________ (______________________________________) manat (ƏDV daxil) ödənilməlidir.
7. Ştrixli kodlaşdırmanın tətbiqində və istifadə edilməsində müvafiq məsləhətlər, metodik materiallar və informasiya bülletenləri verilib.

Yekun ________________________________________________________ manat ödənilməlidir.
Bu akt hər iki tərəfin qarşılıqlı hesablaşmaları üçün əsas sayılır.

Cəmiyyət tərəfindən işi təhvil verdi

______________________________

İstifadəçi tərəfindən işi qəbul etdi

____________________________________

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com